**_Məlum olduğu kimi, bu il martın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda parlaq və dərin məzmunlu çıxış edib. Mən hər bir Azərbaycan ziyalısı kimi, böyük məmnunluq hissi ilə möhtərəm Prezidetimizin qədim və şanlı tariximizin bir parçası olan İçərişəhərlə bağlı olduqca dəyərli fikir və mülahizələri ilə tanış olmuşam._**



# İçərişəhər şanlı tariximiz barədə dil açıb danışır

Cənab İlham Əliyev çıxışında demişdir: "İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz".

Möhtərəm Prezidentin bu sözləri məndə sonsuz qürur və ruh yüksəkliyi yaratdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, həqiqətən, İçərişəhər Bakı şəhərinin özəyidir. Bakı şəhərini İçərişəhərsiz təsəvvür etmək mümkün deyil.

Bu gün ölkəmizə çox sayda əcnəbi qonaqlar, turistlər gəlir. Onlar Xəzəri sahilində yerləşən bənzərsiz Bakımıza, paytaxtın gözü olan qənirsiz İçərişəhərə heyran qalırlar. İçərişəhər həm də bizim şanlı keçmişimiz barədə dil açıb danışır.

Cənab İlham Əliyev sonra demişdir: "İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı hazırda öz qədim tarixinin ən şərəfli günlərini yaşayır. 2020-ci ilin payızında qırx dörd günlük şanlı Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə tarixi zəfər qazanan xalqımız bu gün doğma məmləkətimizin hər bir guşəsində böyük şövq və həvəslə qurub-yaratmaqla məşğuldur.

Mən tələbələrimlə birlikdə İçərişəhəri tez-tez ziyarət edirəm. Burada səliqə və zövq ilə son illər aparılan bərpa və quruculuq işlərindən çox məmnun qalıram. Əlbəttə, biz tarixi milli maddi mədəniyyət abidələrimiz arasında xüsusi yer olan İçərişəhərin qorunub saxlanması üçün hər birimiz əlimizdən gələni etməliyik.

*Minaxanım ƏSƏDLİ,*
*Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru*

Xalq qəzeti .- 2022.- 5 mart.- S.3.